## *Alim ömrünün həyatı, elmi-pedoqoji və ictimai fəaliyyətinin əsas tarixləri*

**Arif Mir Cəlal oğlu Paşayev 15 fevral 1934-cü ildə Bakıda ziyalı ailəsində anadan olmuşdur.**

| | |
|---|---|
| **1941-1951-ci illər** | Bakı şəhəri 164 saylı orta məktəbdə təhsil almışdır |
| **1951-1954-cü illər** | Moskva Elektrotexnika Rabitə İnstitutunda təhsil almışdır |
| **1957-ci il** | Odessa Elektrotexnika Rabitə İnstitutunu radiofizika ixtisası üzrə bitirmişdir |
| **1957-1958-ci illər** | S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində laborant işləmişdir |
| **1958-ci il** | Azərbaycan SSR Elmlər Akademiyasının (indiki AMEA) Astrofizika bölməsində kiçik elmi işçi olmuşdur |
| **1959-1961-ci illər** | Azərbaycan SSR Elmlər Akademiyası Fizika və Riyaziyyat İnstitutunda kiçik elmi işçi kimi fəaliyyət göstərmişdir |
| **1960-1964-cü illər** | Moskva Dövlət Nadir Metallar İnstitutunun aspirantı olmuşdur |
| **1964-1965-ci illər** | Azərbaycan SSR Elmlər Akademiyası Fizika İnstitutunda kiçik elmi işçi kimi fəaliyyət göstərmişdir |
| **1965-ci il** | “Yüksək və ifratyüksək tezliklərdə yarımkeçiricilərin parametrlərini ölçmək üçün kontaktsız üsul və cihazların işlənməsi” mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək texnika elmləri namizədi elmi dərəcəsini almışdır |

| | |
|---|---|
| **1965-1966-cı illər** | Azərbaycan SSR Elmlər Akademiyası fizika-riyaziyyat və texnika elmləri bölməsinin elmi katibi olmuşdur |
| **1966-1971-ci illər** | Azərbaycan SSR Elmlər Akademiyası Fizika İnstitutunda baş elmi işçi olmuşdur |
| **1971-1996-cı illər** | Azərbaycan Elmlər Akademiyası Fizika İnstitutunda Zədəsiz ölçmə və nəzarətin fiziki üsulları laboratoriyasının rəhbəri olmuşdur |
| **1978-ci il** | "Yarımkeçiricilərin tədqiqində qeyri-dağıdıcı üsulların fiziki əsasları, inkişaf prinsipləri və tətbiqi perspektivləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsini almışdır |
| **1988-1990-cı illər** | SSRİ Elmlər Akademiyasının Elmi Şurasının "İfratkeçirici elektronika" mükafatına layiq görülmüşdür |
| **1989-cu il** | Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir |
| **1991-ci il** | Avtonom hidroakustik informasiya sisteminin yaradılması sahəsində kompleks işlərinə görə Azərbaycan SSR Dövlət Mükafatı laureatı adına layiq görülmüşdür |
| | Fizika sahəsindəki yüksək nailiyyətlərinə görə "SSRİ-nin ixtiraçısı" medalına və Y.Məmmədəliyev adına medala layiq görülmüşdür |

| | |
|---|---|
| **1996-cı il** | Azərbaycan Elmlər Akademiyası Fizika İnstitutunun Akustooptika laboratoriyasının rəhbəri olmuşdur |
| | "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Milli Aviasiya Akademiyasının rektoru təyin edilmişdir |
| **1998-2002-ci illər** | Beynəlxalq Mühəndislik, Beynəlxalq Elmlər, Beynəlxalq Nəqliyyat, Beynəlxalq Ekoenergetika və Beynəlxalq İnformatizasiya akademiyalarının həqiqi üzvü seçilmişdir. |
| **1999-cu il** | İngiltərə Beynəlxalq Bioqrafiya Mərkəzinin qızıl medalına layiq görülmüşdür |
| | Dövlətlərarası Aviasiya Komitəsi nəzdində aviasiya mütəxəssislərinin hazırlığı üzrə Koordinasiya Şurasına üzv seçilmişdir |
| | Milli Aviasiya Akademiyasının "Elmi məcmuələr" jurnalının və "Milli Aviasiya Akademiyasının Elmi əsərləri" toplusunun baş redaktoru olmuşdur |
| | Milli Aviasiya Akademiyasında hər il keçirilən "Nəqliyyatın inkişaf problemləri" respublika elmi-texniki tələbə konfransının sədri olmuşdur |
| | Tbilisi Texniki Universitetinin Regional Şurasının üzvü olmuşdur |
| | Azərbaycan Milli Elmlər Akademiyasının Cihazqayırma üzrə Elmi Şurasının sədri olmuşdur |

| | |
|---|---|
| **2001-ci il** | Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir |
| **2002-ci il** | Milli Aviasiya Akademiyasının 10 illiyinə həsr edilmiş I Respublika Spartakiadası Təşkilat Komitəsinin həmsədri olmuşdur |
| | İdmana göstərdiyi böyük diqqət və qayğıya görə Azərbaycan Kosiki Karate-do Federasiyasının 5-ci dan qara kəmər sahibi adına layiq görülmüşdür |
| | Milli Aviasiya Akademiyasının 10 illiyinə həsr edilmiş "Harmoniya, sağlamlıq və hərəkət" seminar-məktəbinin və "Ekstremal vəziyyət, harmoniya və Şərq döyüş sənətləri" Beynəlxalq elmi-praktik konfransın (17-19 aprel 2002) sədri olmuşdur |
| | "Mülki aviasiyanın müasir problemlərinin həllində elm və tədrisin rolu" adlı respublika konfransının (29-30 oktyabr 2002) sədri olmuşdur |
| **2003-cü il** | Ümummilli lider Heydər Əliyevin anadan olma- sının 80 illiyinə həsr olunmuş "Uçuşların təhlükəsizliyi və aviasiya texnikasının inkişafının müasir istiqamətləri" adlı elmi konfransın (8-12 may 2003) sədri olmuşdur |
| | "VEKTOR" Beynəlxalq Elm Mərkəzi Mükafat Komissiyasının qərarı ilə "Azərbaycanın tanınmış alimləri" Beynəlxalq layihəsinin qalibi olmuş və |

| | |
|---|---|
| | “XXI əsrin tanınmış alimi” Beynəlxalq diplomu ilə təltif edilmişdir |
| **2004-cü il** | Milli Aviasiya Akademiyası nəzdində dissertasiyaların müdafiəsi üzrə İxtisaslaşdırılmış Şuranın sədridir |
| | Azərbaycan Respublikası Prezidentinin 14 fevral tarixli Sərəncamı ilə Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə “Şöhrət” ordeni ilə təltif edilmişdir |
| | Elm və təhsilin inkişafındakı böyük xidmətlərinə görə Beynəlxalq Elmlər Akademiyasının Elmi İnkişaf Beynəlxalq Şurasının qərarına əsasən Nobel mükafatı laureatı Pavlov adına Qızıl döş nişanı ilə təltif edilmişdir |
| | Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Ali mükafatına - Qızıl medalına layiq görülmüşdür |
| **2005-ci il** | Azərbaycan və dünya mədəniyyətinin inkişafına, demokratiya, sülh və vətəndaş cəmiyyəti mədəniyyəti tərəqqisinə verdiyi mühüm töhfəyə görə “Mədəniyyət səfiri” fəxri adına layiq görülmüşdür |
| | “Dədə Qorqud” Milli Fondunun “Dədə Qorqud” mükafatı və “Azərbaycan dünyası” jurnalının təsis etdiyi “Vətən övladı” qızıl medalı ilə təltif edilmişdir |
| | Azərbaycan elminin inkişafında xidmətlərinə görə “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür |

| | |
|---|---|
| **2006-cı il** | Poliefiruretan əsaslı lak-kompaund texnologiyasının işlənib hazırlanmasına görə elm nominasiyasında "İntellekt – 2006" ilin layihəsi mükafatına layiq görülmüşdür |
| | Karate idman növünün Azərbaycanda yayılmasında və inkişafında böyük xidmətlərinə görə Dünya Şorinciryu Kenkokan Karatedo Kosiki Karate Federasiyasının vitse-prezidenti və Azərbaycan Şorinciryu Kenkokan Karatedo Kosiki Karate Federasiyasının fəxri prezidenti seçilmiş, 7-ci dan qara kəmər sahibi adına layiq görülmüşdür |
| **2007-ci il** | Rusiya və Gürcüstandan olan alimlərlə birgə yarımkeçiricilər fizikası sahəsində elmi kəşf etmişdir |
| **2008-ci il** | Aviasiya mütəxəssislərinin hazırlanmasında və tədris prosesinin nümunəvi təşkilinə görə Dövlətlər-arası Aviasiya Komitəsinin Qızıl medalı ilə təltif edilmişdir |
| | Rusiya Təbiət Elmləri Akademiyasının Fəxri akademiki seçilmiş və Vernadski adına Qızıl döş nişanı ilə təltif edilmişdir |
| **2009-cu il** | Azərbaycanda elmin və təhsilin inkişafında böyük xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif edilmişdir |
| | Vyana Beynəlxalq Universitetinin fəxri professoru seçilmişdir |

Ukrayna Milli Aviasiya Universitetinin fəxri doktoru seçilmişdir

Gürcüstan Aviasiya Universitetinin fəxri doktoru seçilmişdir

Beynəlxalq Mühəndislik Akademiyası Beynəlxalq mükafatı laureatı diplomu və Böyük qızıl medalı ilə təltif edilmişdir

Ukrayna Mühəndislik Akademiyasının “Mühəndislik Şöhrəti” ordeni ilə təltif edilmişdir

Ukrayna ağsaqqalları adından “Şərəf və ləyaqət” qızıl ulduzu ilə təltif olunmuşdur

Rusiya Elmlər Akademiyasının fəxri üzvü seçilmiş, P.L.Kapitsa adına Qızıl medala layiq görülmüşdür

Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə “Azərbaycanın qabaqcıl təhsil işçisi” diplomu və medalı ilə təltif edilmişdir

**2010-cu il**

“Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri” jurnalının baş redaktoru olmuşdur

Bakı şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən “İlin ən fəal rektoru” fəxri diplomu ilə təltif edilmişdir

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Kosmik Məsələlər üzrə Şuranın sədri seçilmişdir

| | |
|---|---|
| | Ukrayna Milli Aviasiya Universiteti tərəfindən “Böyük Qələbə” ordeni ilə təltif edilmişdir |
| **2011-ci il** | Azərbaycan Mühəndislik Akademiyasının prezidenti seçilmişdir |
| | A.S.Popov adına Odessa milli rabitə akademiyasının fəxri doktoru seçilmişdir |
| **2012-ci il** | Milli Aviasiya Akademiyasının SKY (Səma) elmi- populyar jurnalının baş redaktoru olmuşdur |
| **2013-cü il** | Azərbaycan, Rusiya və Ukrayna alimləri ilə birgə tribologiya sahəsində elmi kəşf etmişdir |
| **2014-cü il** | Azərbaycan Respublikasında səmərəli elmi fəaliyyətinə və təhsilin inkişafında xüsusi xidmətlərinə görə “İstiqlal” ordeni ilə təltif edilmişdir |
| | İxtiraçılıq sahəsində II Respublika Müsabiqəsinin laureatı olmuşdur |
| | Rusiya Mühəndislik Akademiyasının həqiqi üzvü seçilmişdir |
| | “Elmi Təminatlı İnnovasiya Assosiasiyası” İctimai Birliyinin Prezidentidir |
| **2016-cı il** | Milli Aviasiya Akademiyasında hər il keçirilən “Fevral məruzələri: Aviakosmik məsələlərin həllin- də gənclərin yaradıcı potensiali” beynəlxalq elmi-praktik gənclər konfransının həmsədridir |

| | |
|---|---|
| | İxtiraçılıq sahəsində 4-cü Respublika müsabiqəsində I dərəcəli diploma layiq görülmüşdür |
| **2017-ci il** | İxtiraçılıq sahəsində 5-ci Respublika müsabiqəsində I dərəcəli diploma layiq görülmüşdür |
| **2018-ci il** | AMEA-nın Respublika Elmi-Tədqiqatların Əlaqələndirilməsi Şurasının Texnika Problemləri üzrə Elmi Şurasının sədridir |
| | Aviasiya və texnika elminin inkişafında böyük xidmətlərinə görə N.E.Jukovski adına Milli aerokosmik universiteti–Xarkov aviasiya institutunun fəxri professoru seçilmişdir |
| **2019-cu il** | Beynəlxalq Mühəndislik Akademiyasının “ALMAZ” nişanı ilə təltif olunmuşdur |